

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 187 (23.349)

*5 oktyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*




Xəbər verildiyi kimi, oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

Sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-Rusiya siyasi-iqtisadi əlaqələrinin inkişafından danışıb. Dövlətimizin başçısı çıxışında Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına da toxunaraq deyib ki, bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi.

Sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırıblar.

Dövlət başçılarının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub.

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Abbasova Aynur Eldar qızına

Əliyev Elsevər İntiqam oğluna

Əsgərova Şəmsiyyə Həsən qızına

Quliyeva Atikə İbad qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 oktyabr 2019-cu il*

## Payızlıq taxıl əkini işləri həyata keçirilir



Taxılçılıq muxtar respublikada kənd təsərrüfatının ən vacib sahələrindən biridir. Diyarımızın torpaq-iqlim şəraiti bu vacib sahənin inkişafı üçün əlverişlidir. Odur ki, intensiv becərmə texnologiyalarına üstünlük verməklə əkin sahələri ilbəil genişləndirilir.

Sədərək rayonunda da bu sahənin inkişafına maraq getdikcə artır. Bu qiymətli məhsulun ərsəyə gətirilməsində zəngin təcrübə toplayan, hərtərəfli qayğı ilə əhatə olunan rayonun taxılçıları qazanılan uğurdan ruhlanaraq gələn ilin bol məhsulunun əsasını qoymaq üçün səy və bacarıqlarını əsirgəmir, taxıl əkininə ciddi hazırlaşırlar.

Cari ilin məhsulu tədarük edilən kimi əkinlərin saman və küləşindən kip vurularaq sahədən toplanılıb, şum işinə başlanılıb. Bu məqsədlə əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri öz bəhrələrini verməkdədir. Əkiləcək sahələrə kifayət qədər şum qaldırmaq üçün traktorlar çıxarılıb, həmin texnikalar üçün tələb olunan ehtiyat hissələri əldə edilib, yanacaq ehtiyatı tədarük olunub. Əkinə tezliklə başlamaq üçün torpaq mülkiyyətçiləri vaxtdan səmərəli istifadə edirlər. Sədərək Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu günə qədər 820 hektaradək sahədə şum aparılıb. Torpaq mülkiyyətçiləri taxıl sahələrini bir qədər də genişləndirərək əvvəlki ildən artıq əkin sahələri becərmək əzmindədirlər.

Yaxın günlərdə rayonun torpaq mülkiyyətçiləri əkin kampaniyasına başlayacaqlar. Onlar cari ildə əldə edilən nəticəni son həddə hesab etmir, qarşıdakı ildə daha yüksək nəticələr qazanacaqlarına inanırlar.

**Xəbərlər şöbəsi**

***Vergi və digər ödənişlərin vaxtında və tam şəkildə büdcəyə ödənilməsi əhalinin rifah səviyyəsinin daha da yaxşılaşdırılmasına və muxtar respublika iqtisadiyyatının hərtərəfli inkişafına təkan verir.***

## Sahibkarlıq uçotuna alınan fiziki şəxslərin 79 faizi muxtar respublika rayonlarının payına düşüb

Ötən dövr ərzində vergi intizamının və vergi mədəniyyətinin formalaşması, vətəndaşlarda vergi qanunvericiliyinə hörmətlə yanaşmaq və əməl etmək bacarığı öz müsbət nəticələrini verməkdədir. Belə ki, sentyabr ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz 113,5 faiz icra edilib. Daxil olmuş vəsaitlərin mənbəyinə gəldikdə isə onların 31 faizi dövlət, 69 faizi isə özəl sektorun payına düşüb. Özəl sektor üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz artıb.

Aparılan maarifləndirmə və məlumatlandırma tədbirlərinin nəticəsidir ki, gələcəkdə insanların layiqli pensiya və digər təminatlardan yararlanması üçün ödənilməsi zəruri olan məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 138,1 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 127,8 faiz əməl edilib. İstər vergilər üzrə, istərsə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə proqnozlar bütün yerli vergi orqanları üzrə artıqlaması ilə icra edilib.

Muxtar respublikamızda iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, özəl sektora dövlət dəstəyinin gücləndirilməsi, xüsusilə rayonlarda mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişlənməsi bu sahədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Belə ki, Vergilər Nazirliyinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə sentyabr ayı ərzində 2 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına alınıb. Bundan əlavə, bu dövrdə 208 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 79 faizi muxtar respublika rayonlarının payına düşüb. Bütün bu müsbət nəticələr dövlətimizin özəl sektora göstərdiyi diqqət və qayğının ən bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Pərakəndəçilikdə uğur yerli istehsaldan başlayır

***Pərakəndəçilik sektorunu əbəs yerə biznesin aynası adlandırmırlar. Çünki bu sektor istehsalçı ilə istehlakçını görüşdürən, tələb və ehtiyacları tənzimləyən, keyfiyyətli məhsulu tanıdan, brendə çevirən, keyfiyyətsiz məhsulu isə bazardan çıxaran böyük bir sektordur.***



Bu gün dünyada istehsal olunan məhsulların keyfiyyətindən tutmuş rəqabət bazarının formalaşmasınadək, reklam bazarının inkişafından yerli məhsulların brendləşməsinə qədər müxtəlif prosesləri pərakəndəçilik sektoru tənzimləyir və nəzarətdə saxlayır. Digər tərəfdən, pərakəndəçilik sektoru həm də istehsalçılara birbaşa məhsulu necə istehsal etməyi diktə edən bir sahədir. Məhz bu sahənin ortaya qoyduğu nəticələrlə sahibkarlar bazarın tələbini anlayır, hansı məhsulu nə zaman və necə satışa təqdim etməyi planlaşdırırlar. Bir sözlə, həyatımızda baş verən yenilikləri, ilk olaraq bizə bu sektor çatdırır. Buna görə də pərakəndəçilik bütün dünyada bazar iqtisadiyyatının özəyi olaraq qəbul edilir.

Hazırda pərakəndəçilik sektoru ölkəmizdə, eləcə də muxtar respublikamızda özünün yeni inkişaf dövrünü yaşayır. Bir zamanlar məhdud növ və çeşiddə alıcılarını təmin etməyə çalışan ticarət obyektləri bu gün artıq vizual görüntüsü xoş təsir bağışlayan, komfortlu, işıqlı, seçim imkanları daha çox olan mağaza və alış-veriş mərkəzləri ilə qarşımıza çıxır. Əvvəllər aldığımız məhsulların böyük bir həcmini idxal məhsullar təşkil edirdisə, bu gün artıq ticarət şəbəkələrində satılan məhsulların böyük bir qismi yerli müəssisələrin istehsalıdır. Əgər əvvəllər alıcılar daha çox idxal məhsulların keyfiyyətinə inanır və alırdılarsa, bu gün istehlakçılar yerli məhsullara daha çox üstünlük verirlər. Bir zamanlar istehlakçılar aldıqları məhsulların keyfiyyəti ilə bağlı problemlərlə qarşılaşanda çıxılmaz vəziyyətdə qalırdılarsa, bu gün artıq hər bir yerli istehsalçı öz məhsuluna qəti şəkildə cavabdehlik daşıyır və alıcılar qarşılaşdıqları problemlərlə bağlı öz fikirlərini lazımi ünvanlara çatdıra bilirlər. Eyni zamanda onlar bu hüquqlarından istifadə edərək istehlakçı mənafelərini qoruya bilirlər.

Ümumilikdə götürsək, son 20 ildə muxtar respublikamızda pərakəndəçilik sektoru həm böyük bir inkişaf yolu keçib, həm də mühüm yeniliklər gətirib. Məsələn, əvvəllər mağaza və yaxud hər hansı bir xidmət sahəsi üçün obyekt açmaq istəyən sahibkar mütləq şəkildə şəhərin mərkəzi hissələrində bunu etməyə çalışırdı. İndi isə şəhərətrafı ərazilərdə kifayət qədər aktiv fəaliyyət göstərən, böyük istehlakçı kütləsi qazanan ticarət obyektlərinin fəaliyyət göstərdiyinin şahidi oluruq. Bu fakt onu göstərir ki, keyfiyyətli məhsul və yaxşı xidmət olan yerdə istehlakçı da daim var olacaq. Digər tərəfdən, rəqabət olan yerdə keyfiyyət də ön plana çıxır, pərakəndəçilik mədəniyyəti də. Çünki bazar iqtisadiyyatında hər bir sahibkar daha yaxşısını etməyə məcburdur. Bunun əksi, sadəcə, bazardan getməkdir. Sevindirici haldır ki, pərakəndəçilik sektorunda olan istehsalçı-pərakəndəçilərimiz bu aydın həqiqəti indi daha yaxşı anlayırlar.

Bu gün muxtar respublikamızda pərakəndəçilik sektorunun ən böyük dəstəkçisi dövlətdir. Sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, bankların iqtisadi sahələrə ayırdığı güzəştli kreditlər, ailə təsərrüfatı institutlarının formalaşdırılması istiqamətində görülən işlər, yerli xammala əsaslanan məhsulların istehsalının təşviqi və digər bu kimi addımlar yerli pərakəndəçiliyin inkişafında ən böyük amillərdir. Təsadüfi deyil ki, bu gün naxçıvanlı istehlakçı Naxçıvanın ət məhsullarını, sementini, duzunu, pendirini, balını, şirniyyatını və adını sadalamadığımız yüzlərlə digər məhsulları başqa ölkələrin eyniadlı məhsulları ilə əvəz etmir. Bu, Naxçıvanda pərakəndəçilik sektorunun indiyədək əldə etdiyi ən böyük uğurdur. Bu uğurun əsası isə muxtar respublikada hər il sayı dinamik şəkildə artan yerli istehsal müəssisələridir, kiçik sahibkarlığın inkişafıdır. Eyni zamanda sahibkarlığa gedən yolun başlanğıcı kimi ailə təsərrüfatlarının inkişaf etdirilməsidir. Son illərdə bu istiqamətdə böyük işlər görülüb, 2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunub. Ümid edirik ki, yaradılmış şərait yaxın gələcəkdə qeyri-ərzaq məhsulları istehsal edən ailə təsərrüfatlarının da yaranmasına stimul verəcək.

Uzun illərin dünya təcrübəsi sübut edir ki, istənilən ölkədə pərakəndə ticarətin genişləndirilməsi kiçik və orta sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Dünyanın ən iqtisadi qüdrətə malik ölkələrindən biri olan Almaniyanın inkişaf templəri bü gün Avropa İttifaqı ölkələri ilə müqayisədə (27 ölkə) iki dəfədən çoxdur. 10 il bundan əvvəl – 2009-cu ildə bütün Avropanı bürüyən böhrandan yalnız alman iqtisadiyyatı 3 faiz artımla çıxdı. Maraqlısı budur ki, məhz böhrandan sonra bu ölkə öz iqtisadi gücünü daha da artırmağa başladı. Dünyanın aparıcı biznes strukturlarının alman iqtisadi gücünün sirləri üzərində baş sındırdıqları araşdırmaların da nəticəsi bu oldu ki, bu iqtisadi əfsanənin sirri ölkədə kiçik və orta sahibkarlığın inkişafındadır. Çünki bu ölkədə 3 milyondan çox kiçik və orta sahibkarlıq subyekti var. Almanların 70 faizi məhz bu şirkətlərdə çalışırlar. Hansı ki həmin şirkətlərin 97 faizi 9-10 nəfərdən ibarət sahibkarlıq subyektləridir. Ümumi daxili məhsulda isə bu şirkətlərin payı 50 faizə yaxınlaşıb və bu göstərici Avropa ölkələri arasında ən üstün göstəricidir. Muxtar respublikamızda mövcud olan imkanlardan da geniş istifadə etməklə pərakəndəçilik sektorunu daha da inkişaf etdirə bilər, bununla da iqtisadiyyatımıza töhfə vermiş olarıq.

**✍ Səbuhi HƏSƏNOV**

*Kültəpə qədim yaşayış məskəni kimi təkcə ölkəmizin deyil, hətta Cənubi Qafqazın tarixşünaslıq elmində də məxsusi yerə malikdir. Hələ Sovetlər Birliyi dönəmində, daha dəqiq desək, ötən əsrin 50-60-cı illərində arxeoloq Osman Həbibullayev tərəfindən aparılan arxeoloji qazıntılar zamanı mühüm materiallar əldə edilmişdir. Amma bir kəndin, bir ölkənin zəngin keçmişi, dünya tarixindəki rolu bizi milli kimliyimizdən, yaddaşımızdan, mədəniyyətimizdən uzaq salmağa çalışan ovaxtkı imperiyanın heç də marağında deyildi.*




*Müasirləşən kəndlərimiz*

# Tarixi ilə qürurlanıb müasirliyi ilə öyünən Kültəpə

Sinəsində ulu keçmişimizi, əcdadlarımızın izlərini yaşadan bu yerdə tarixi düyünlərin açılmasına, tariximizə güzgü tutulmasına ehtiyac var idi. Kültəpə kəndi, bu qədim yaşayış məskəni ilə bağlı əsaslı elmi araşdırmalar, arxeoloji tədqiqatlar, bu barədə yeni nəşrlərin hazırlanması müstəqillik illərinə təsadüf edir. Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən kənddə bir neçə dəfə tədqiqat və qazıntı işləri aparılıb, yeni maddi mədəniyyət nümunələri aşkar edilib. Müəyyən olunub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir və burada insanlar eradan əvvəl VII minilliyin ortalarında məskunlaşıblar. Yaşayış yerindən tapılan mis ərintiləri və ocaqlar isə Naxçıvanı Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzlərindən biri kimi tanıdıb. Kültəpənin tarixi barədə son illər neçə-neçə televiziya filmi çəkilib, məqalələr hazırlanıb, yeni kitablar işıq üzü görüb. Bu gün isə həmin yurd yerinin tarixi ilə bərabər, kənddə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə həyata keçirilən işlər – kəndin inkişaf, müasirlik, abadlıq tarixi barədə yazılmalı, deyilməli çox söz var. Kültəpə artıq müasir görkəmi ilə yaddaşlarda iz buraxmaqda, inkişafı ilə "öyünməkdədir". Bir kəndin, qəsəbənin, şəhərin keçmişinə ekskursiya etməklə bugünkü vəziyyətini daha yaxşı görmək olar.


*Məktəbin əvvəlki binası*

Kültəpə məktəbinin dünənindən yola çıxaraq qeyd edim ki, ötən əsrin 60-70-ci illərinə kimi kənddə dördillik məktəb fəaliyyət göstərib. Yəni təhsilini başa vurmaq arzusunu gerçəkləşdirmək istəyənlər mütləq qonşu Kərimbəyli kəndinə üz tutmalı olublar. Kənd tam orta məktəbinin tarix müəllimi Nadir İsgəndərov deyir: – Sovetlər Birliyi dönəmində hər 5-10 ildən bir məktəb tikintisi aparılırdı. Amma bu gün Naxçıvanda hər il hansısa kənddə abadlıq-quruculuq işlərinin getdiyini eşidirik, yeni inzibati binaların açılışlarına şahidlik edirik. Təkcə Babək rayonunda 36 ümumtəhsil məktəbi var və onların hər birində yaxşı şərait yaratmaq, müasir tədris imkanlarını təmin etmək heç də asan başa gəlməyib. Bizim kəndimizdə də müasir təhsil ocağı istifadəyə verildi və bununla da Babək rayonunda məktəb tikintisi, demək olar ki, yekunlaşmaq üzrədir. Bu, özlüyündə mühüm bir faktdır. Qurub-yaradanlara minnətdarıq.

Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Jalə Sadiqovanın fikirləri də maraqlıdır. Gənc müəllim deyir ki, ötən tədris ilində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada müəllimlərin işə qəbulu üzrə keçirilən imtahanlarda yüksək nəticə göstərmişəm və ikinci ildir ki, pedaqoji fəaliyyətlə məşğulam. Əvvəla, fürsətdən istifadə edib müəllimlərin işə qəbulu zamanı təmin olunan şəffaflığa görə öz minnətdarlığımı bildirirəm. Daha bir minnətdarlıq borcum isə yeni məktəb binasına görədir. Yenidənqurmadan öncə bu məktəbdə işləyən biri kimi deyə bilərəm ki, istifadəmizə verilən təhsil ocağı yeni tədris ilində, Beynəlxalq Müəllimlər Günü ərəfəsində Ali Məclisin Sədri tərəfindən pedaqoji kollektivə bəxş edilən ən böyük hədiyyədir.


*Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik*

Əhalisi Naxçıvançay boyunca məskunlaşan Kültəpə aran kəndidir və burada da əkinçilik, heyvandarlıq, arıçılıq yaxşı inkişaf edib. Ümumiyyətlə, kəndin bərəkətli torpaqları kimi, zəhmətkeş təsərrüfat sahibləri də var. Xatırladaq ki, 2016-cı ildə Ali Məclis Sədrinin iştirakı ilə Kültəpə və Kərimbəyli kəndlərində torpaqları suvarma suyu ilə təmin etmək, su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə yeni suvarma şəbəkəsi istifadəyə verilib. Bunun nəticəsində həmin kəndlərin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılıb, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılıb. Bununla kənddə yeni meyvə bağı salanların da sayı artıb. Məsələn, dörd hektar sahədə yeni meyvə bağı salan Vasif Cəfərov deyir ki, illər öncə suvarmanı "Sirab arxı" adlandırdığımız kanal vasitəsilə min bir çətinliklə təmin edirdik. Bir neçə il bundan öncə istifadəyə verilən suvarma şəbəkəsi Heydər Əliyev Su Anbarının sol sahil kanalından qidalanır və el dili ilə desək, əkin sahələrimizi "tutur". Kəndlinin istədiyi sudur, torpaqdır, yaxşı yaşayışdır ki, bunların da hamısı təmin edilib. Digər tərəfdən, sosial qayğılarımız da həll olunub. Məsələn, dövlət yeni xidmət mərkəzi tikməklə deyir ki, alış-veriş etmək üçün daha əvvəlki kimi qonşu Kərimbəyli kəndinə getmə. Müasir kənd mərkəzini tikməklə dövlət orqanlarında çalışanlar üçün yaxşı iş şəraiti yaradır, ambulatoriyada tibbi xidmət təşkil edir. Ən əsası illər uzunu hamımızın qayğısına çevrilən yol problemimiz də həllini tapıb. Doqquz kilometrlik yolu yenidən qurmaq, asfalt örtük vermək təkcə kültəpəlilərin deyil, bura gələn qonaqların, ətraf kəndlərin, ümumiyyətlə, yolu bu tərəfdən düşən hər kəsin duasını, rəğbətini qazanmaq deməkdir.




*Köhnə mağaza*

Kültəpədəki mövcud olan ailə təsərrüfatlarının istehsal etdikləri məhsullar da muxtar respublika səviyyəsində tanınır və yaxşı alıcı qüvvəsi var. Onlardan biri də "Gündüz" süd məhsullarının istehsalı sahəsidir. Burada 250 və 500 qramlıq taralarda qatıq və ayran hazırlanır. Sahibkar Gündüz Məmmədov deyir ki, 2015-ci ildə 26 min manat dövlət maliyyə dəstəyi aldıq və yeni bir istehsal sahəsi yaratdıq. Avadanlıqları qonşu ölkələrdən alsaq da, taraları Nehrəm kəndindəki "Xalaoğlu" kəndli-fermer təsərrüfatından əldə edirik. Orada plastik taraların istehsalı sahəsi yaradılıb. Müəssisəmizdə 3 daimi işçi çalışır. Xammalı isə öz təsərrüfatımızdan əldə edirik. 20-yə yaxın iribuynuzlu malqaramız var. "Ailə təsərrüfatları ili"ndə məhsul çeşidlərimizi artırmağa nail olmuşuq.





Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Kamal Ağayev bizi zəhmətkeş təsərrüfatçı Mənsur Cəfərovun yaratdığı "Nəriman" lavaş sexi ilə tanış etdi. Öyrəndik ki, 6 nəfərin daimi iş yeri olan bu istehsal sahəsi 2005-ci ildə 8 min manat dövlət maliyyə dəstəyi hesabına qurulub. Sahibkar deyir ki, ötən il daha 10 min manat vəsait sərf edib çörək sexi üçün yardımçı binalar tikmişəm, çörəyi yerlərə çatdırmaq üçün avtomobil almışam.



Kültəpə kəndində qurulub-yaradılanlar təkcə Babək rayonunun deyil, ümumilikdə, qədim Naxçıvan torpağının son illərdə qazandığı nailiyyətləri, uğurları, sosial-iqtisadi inkişaf tempini xarakterizə edir. Bu yerdə məşhur ingilis yazıçısı Daniel Defonun "Robinzon Kruzo" romanı yada düşür. Romanda adam yaşamayan adaya düşmüş insanın 28 il ərzində təbiət qüvvələrinə qarşı mübarizə əzmi, iradə möhkəmliyi, dözümlülüyü, yaradıcı əməyi tərənnüm olunur. Eynilə qədim Naxçıvan və naxçıvanlılar da ağır blokadanın yaratdığı çətinliklərə sinə gərərək bu mübarizədə qalib çıxıblar. Naxçıvan Vətən torpağını dərindən sevən, elinə-obasına qəlbən bağlı olan insanların fədakar əməyi sayəsində yenidən ucalıb, bugünkü tərəqqisinə qovuşub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qədim diyarın inkişaf mexanizmlərini elə dəqiqliklə işləyib hazırlayıb ki, bu gün Babək rayonunun da yaşayış məntəqələrinin 90 faizindən çoxu abadlaşdırılıb. Rayon muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində başdan-başa yenidən qurulub.

***P. S.** Yuxarıda Kültəpə kəndində istifadəyə verilən yeni sosial obyektlərin əvvəlki fotolarını təqdim edirik. Gəlin fərqi biz yox, fotokadrlar özü müqayisə etsin...*

**Muxtar RZAZADƏ**
*"Şərqin səhəri" qəzetinin redaktoru*



*Hər il oktyabrın 5-i “Beynəlxalq Müəllimlər Günü” kimi qeyd olunur.*

*5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

# Muxtar respublika müəllimləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub

Bir xalqın, millətin formalaşmasının əsas mənbəyi elm və təhsildirsə, elmin inkişaf etdirilməsinin, müxtəlif istiqamətlərdə və peşələrdə xalqa layiqli vətəndaşlar yetişdirilməsində əldə olunan nailiyyətlərin mənbəyi isə məhz müəllimdir. Müəllimin verdiyi bilik sayəsində cəmiyyətdə təhsil, təhsildən isə inkişaf doğulub.

Müəllimlər cəmiyyətin nüfuzlu şəxslərindən hesab olunurlar. ***“Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır”***, – deyən ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllimlərə böyük hörmətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Ulu öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qanunvericilik bazası təkmilləşdirilir, dövlət proqramları qəbul olunaraq icra edilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, artıq Azərbaycan dünyada sabitliyin təmin olunduğu və iqtisadiyyatı inkişaf edən ölkə olmaqla yanaşı, həm də elm və təhsil ölkəsi kimi tanınır.

Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsində ardıcıl tədbirlər görülür. Müstəqillik illərində muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi üçün yeni tədris korpusları tikilib istifadəyə verilmişdir. Təkcə 2019-cu ilin ötən dövründə 4 tam orta məktəb binası istifadəyə verilmiş, hazırda 8 ümumtəhsil müəssisəsi üçün binaların tikintisi davam etdirilir.





Muxtar respublikanın ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5500-dən artıq kompüter və 600-dən çox elektron lövhə quraşdırılmış, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin edilmişdir. Məktəblərimizdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanmış, qabaqcıl tədris metodlarının, o cümlədən distant təhsilin tətbiqinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası bütün təhsil müəssisələrində təhsilin keyfiyyətinin yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, yeni təlim üsullarının tətbiqinə əlverişli şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.





Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət, təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti müəllim əməyinin bəhrələrini daha da artırır, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. Muxtar respublikada 2018-2019-cu tədris ilinin nəticələri uğurlu olmuş, qəbul imtahanlarında yüksək nəticələr əldə edilmiş, məzunlardan 1540-ı ali məktəblərə, 244-ü isə orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Onlardan 281-i 500-700 arası bal toplamış, 4 məzun isə Prezident təqaüdünə layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel 2018-ci il tarixli Qərarına uyğun olaraq pedaqoji kadrların müsabiqə ilə işə qəbulu həyata keçirilir. Bu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açmışdır. 2018-ci ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqələrdə yüksək nəticə göstərən 215 müəllim işlə təmin olunmuşdur. Hazırda rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd məktəblərində fəaliyyət göstərən müəllimlərə həvəsləndirmə tədbirləri tətbiq edilir.

Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirən müəllimlərin əməyi dövlətimiz tərəfindən qiymətləndirilmişdir. Muxtar respublikanın təhsil müəssisələrində çalışan müəllimlərdən 117-si “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 187-si isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 108 müəllim “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır. Həyata keçirilən tədbirlər müəllim nüfuzunu artırmış, onlar arasında sağlam rəqabəti və motivasiyanı gücləndirmiş, təhsilin keyfiyyət göstəricilərinin əhəmiyyətli şəkildə yüksəlməsinə səbəb olmuşdur. Muxtar respublikada müəllim əməyinə verilən qiymət, müəllimlərin fəaliyyəti üçün yaradılan tədris şəraiti müəllim nüfuzunu yüksəltmiş, bu peşəyə marağı artırmışdır. Görülən işlərin nəticəsidir ki, müəllim olmaq istəyənlərin sayında hər il artım müşahidə olunur. Ötən tədris ilində 740 məzunun pedaqoji profilli ixtisasa qəbul olunması bunun əyani ifadəsidir.

Son illər muxtar respublikada təhsil sistemində aparılan islahatlar müəllim hazırlığı sahəsini də əhatə edir. Bu gün ali təhsil müəssisələrində müəllim hazırlığı sahəsində mühüm işlər görülür. Eyni zamanda onların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim hazırlığına yeni yanaşmaları əks etdirən kurslar təşkil edilir, təlimin təşkilində nəzərdə tutulmuş məqsədlərə nail olunması, nəticələrin əldə edilməsi və müəllimlər arasında təcrübə mübadilələrinin aparılması üçün elmi-praktik konfranslar keçirilir. Naxçıvan Dövlət Universitetində kimya, biologiya və fizika fənləri üzrə ixtisasartırma kursları, Naxçıvan Müəllimlər İnstitutunda isə “Ümumtəhsil məktəblərində psixoloji xidmətin təşkili və səmərəliliyinin artırılması”, “Ümumtəhsil məktəblərinin ibtidai siniflərində tədrisin təşkili və səmərəliliyinin artırılması yolları” və digər mövzularda elmi-praktik konfranslar keçirilmişdir.

Bu gün təhsildə “İnteraktiv dərs”, “Nümunəvi dərs”, “Elektron universitet”, “Distant təhsil”, “Dərsdən sonra” və “Sabahın müəllimi” layihələri tətbiq olunur. İxtisaslı müəllim hazırlığını yaxşılaşdırmağa xidmət edən “Sabahın müəllimi” layihəsi çərçivəsində pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrə mütəmadi olaraq təhsildəki yeniliklər haqqında məlumatlar verilir, təcrübəqabağı konfranslar təşkil olunur, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçmələrinə şərait yaradılır, kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə ali təhsil müəssisələrinə dərslik və metodik vəsaitlərin verilməsi təmin olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır”.***

Peşə bayramlarını qeyd edən muxtar respublika müəllimləri bundan sonra da Ali Məclis Sədrinin tövsiyələrini əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirəcək, təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## 4 gündə 928-dən çox rəsm və əl işi satılıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı davam edir. Oktyabrın 10-dək davam edəcək sərgiyə maraq böyükdür. İstər fərdi şəkildə, istərsə də ayrı-ayrı kollektivlər sərgi-satışda fəal iştirak edir, maraqlı əl işləri və rəsm əsərləri ilə tanış olurlar.

Ötən gün muxtar respublikanın nazirlik, komitə, idarə, təşkilat və müəssisələrinin kollektivləri sərgilənən və satışı təşkil olunan sənətkarlıq nümunələrinə baxıblar. Məlumat verilib ki, sərgi-satışa, ümumilikdə, 305 müəllifin 3 min 926 əl işi çıxarılıb. Burada istedadlı, sağlamlıq imkanları məhdud evdar xanımlarla yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərən qadınların da əl işləri sərgilənir.

Naxçıvanın qədim memarlıq abidələri və Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı əl işləri sərgi iştirakçıları tərəfindən rəğbətlə qarşılanır. Sərgiyə gələnlər bu diqqətçəkən əsərlərdən çoxlu hədiyyələr alırlar. Ümumilikdə, sərgi-satışda oktyabr ayının 1-dən başlayaraq 250 şəxsin 11020 manat dəyərində 928-dən çox əl işi satılıb.

**✍ Gülcamal TAHİROVA**

## Plovdağ yaşayış yerində aparılan arxeoloji ekspedisiyanın yekunları müzakirə edilib

***AMEA Naxçıvan Bölməsində Ordubad rayonu ərazisində yerləşən Plovdağ yaşayış yerində aparılan arxeoloji ekspedisiyanın yekununa həsr olunan tədbir keçirilib.***



Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, hər il olduğu kimi, bu il də Naxçıvan ərazisində yerli və beynəlxalq ekspedisiyalar tərəfindən arxeoloji qazıntılar aparılıb və çox sayda yeni maddi mədəniyyət nümunələri aşkarlanıb. Ordubad ərazisində fəaliyyət göstərən Xaraba Gilan arxeoloji ekspedisiyasının tədqiqatlarından bəhs edən alim ərazidə qazıntı işlərinin AMEA-nın Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli tərəfindən həyata keçirildiyini söyləyib.

Bəhlul İbrahimli çıxış edərək Plovdağ Tunc dövrü yaşayış yerində aparılan arxeoloji ekspedisiyanın yekununa dair ətraflı məlumat verib. Arxeoloq alim qeyd edib ki, Plovdağ yaşayış yerində 2004-cü ildən başlayaraq arxeoloji tədqiqatlar aparılır. Abidə bütünlüklə Tunc dövrünü əhatə edir. Tədqiqatlar nəticəsində ərazidən həmin dövrə aid fərdi evlərin qalıqları, yardımçı tikililər, yaşayış yerindən və nekropollardan xeyli sayda dən daşları, toxalar, baltalar, qara və boz rəngli keramika nümunələri, ocaq qurğuları aşkar olunub. Tapılan daş alətlər Orta Tunc dövrü üçün xarakterik materiallardır. O bildirib ki, ekspedisiya zamanı ərazidən aşkar edilən həmin materiallardan 300-ə yaxını muzeylərə təqdim ediləcək.

Sonra o, iştirakçıların suallarını cavablandırıb.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, institutun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, Naxçıvan şəhər arxeoloji ekspedisiyasının rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və Arxeologiya xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva çıxış edərək Plovdağ yaşayış yerində aşkar olunan Erkən Tunc dövrü arxeoloji materialların Azərbaycan və Naxçıvan arxeologiyası üçün əhəmiyyətini qeyd ediblər.

Tədbirdə Plovdağ yaşayış yerində tədqiqat zamanı aşkar olunan arxeoloji materialların videogörüntüləri nümayiş etdirilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Telefonuma tanımadığım bir nömrədən zəng gəldi. Xəttin o biri başında illərin ağırlığı çökmüş yorğun səsli bir qadın özünü belə təqdim etdi: "Mən şəhid Zamin Məmmədovun anasıyam. Oktyabrın 5-i onun doğum günüdür. Yad etsəniz, sevinərəm", – dedi.*

# Bir amalın iki qəhrəmanı



Ertəsi gün Zaminin dünyaya göz açdığı kəndə – Babək rayonunun Nehrəm kəndinə üz tutdum. Nərgiz ana elə qapıda gözləyirdi. Övladının həsrəti bəyaz qar kimi saçlarına hopmuş, ürəyində düşmənə nifrət, gözlərində qələbəyə ümid qığılcımı gəzdirən, bu torpağa, bu elə qəhrəman yetişdirən ana ilə görüşmək, onunla həmsöhbət olmaq həm çətin, həm də şərəfli idi mənim üçün. Azərbaycan qadınının bütün keyfiyyətlərini özündə əxz etmiş Nərgiz ananın söhbətini dinlədikcə gözümdə bir tablo canlanırdı: vətənpərvər, vətənpərvər olduğu qədər məğrur, məğrur olduğu qədər də cəsarət sahibi olan bir qəhrəman ana. Ali təhsillidir. Sovet dövründə kolxozda briqadir olub. Fəaliyyət göstərdiyi müddətdə "Qırmızı Əmək Bayrağı" ordeni alıb, yaxşı işinə görə dəfələrlə fəxri fərmanlara layiq görülüb. Ailə qurduqdan sonra əmək fəaliyyəti sonlanıb. Digər missiyasını – analıq missiyasını layiqincə yerinə yetirib. 4 övlad böyüdüb. 4-ü də ali təhsilli, cəmiyyətimizə yararlı. Zamin 3-cü övladı olub.

Nərgiz ana övladının şəkillərini göstərir, haqqında qürurla danışır. Onu dinlədikcə artıq hazırlayacağım yazının baş qəhrəmanını deyil, baş qəhrəmanlarını müəyyənləşdirmişdim. Bunlardan biri şəhid Zamin Məmmədov, digəri qəhrəmanı yetişdirən Nərgiz ana idi.

"Ailə qurmağa tələsmirdi. Atası Allahverdi kişinin və mənim təkidimdən sonra qohumlardan birinin qızı ilə nişanladıq. Toy hazırlıqlarına başladıq. Otağını bəzədik. İndi bu otaq onun xatirəsilə dolub". Divardan asılan üçrəngli bayrağımız, Zaminin hərbi forması, şəkilləri... Sanki bir muzeydir – vətənpərvərlik muzeyi. Nərgiz ana bu otağı elə muzey kimi də qoruyur. "Hər gün işdən gəlib ilk olaraq bu otağa keçirəm. Ana-bala söhbət edirik", – deyir Nərgiz ana.

### *Qəhrəman doğulurlar, qəhrəman olmurlar!*

Kim idi Zamin Məmmədov? O, 1985-ci il oktyabrın 5-də Nehrəm kəndində dünyaya göz açıb. Bu kənddən başlayıb Vətən sevgisi. Əvvəl Nehrəmi, Naxçıvanı, sonra bütünlüklə Azərbaycanı sarıb. Nehrəm, əsasən, muxtar respublikanın daha çox ziyalılar yetirmiş yaşayış məskəni kimi tanınır. Anasının arzusu da Nehrəm kənd 2 nömrəli orta məktəbdə dərslərini əla qiymətlərlə oxuyan Zamini həkim görmək idi. Lakin o, qəhrəman doğulmuşdu. Onun missiyası daha ali idi. Bu missiyanın ilk işartıları da elə uşaq yaşlarından görünürdü. Əlinə keçən alüminium məftilləri əyib gah tank, gah da avtomat düzəldirdi.

Nərgiz ana: "O, artıq öz yolunu seçmişdi. Bunun qarşısını almaq günah olardı. İnsan yalnız sevib seçdiyi sahədə müvəffəqiyyət qazanar. Ona görə də oğlumun seçiminə hörmətlə yanaşdıq". Orta məktəbdə oxuyarkən artıq Sovet İttifaqı dağılmış, Azərbaycan şəhidlərin qanı bahasına əldə etdiyi müstəqilliyini qorumaq uğrunda mübarizə aparırdı. Vətənpərvərlər bu mübarizənin ön cərgələrinə qoşulurdular. Bu ərəfədə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 1998-ci ildə Naxçıvanda ilk hərbi təhsil ocağı – Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılır. Böyük qardaşı Zaur Məmmədov bu liseyin ilk məzunlarından olur. 2000-ci ildə Zamin Məmmədov da Hərbi Liseyin kursantı olmaq şərəfinə nail olur. Artıq o, məqsədinin astanasında idi...

Liseyi bitirdikdən sonra məqsədinin ardınca Bakıya üz tutan Zamin Məmmədov Heydər Əliyev adına Ali Hərbi Məktəbi də uğurla başa vurur. Leytenant rütbəsi ilə ordu sıralarında xidmətə başlayan Zamin Məmmədov öz istəyi ilə Ağdama – cəbhə bölgəsinə göndərilir. Mənfur ermənilərin atəşkəsi tez-tez pozduğu bu bölgədə onun üzərinə daha artıq məsuliyyət düşürdü. Taqım komandiri kimi əsgərləri yetişdirmək, qayğısına qalmaq, eləcə də Vətənin keşiyində ayıq-sayıq dayanmaq.

### *Vətəni qorumaq peşəsini seçən oğullara eşq olsun!*

Zamin 2008-ci ildə ayağından güllə yarası alsa da, tezliklə ayağa qalxıb yenidən səngərə qayıdır. Bu yoldan onu ölüm qorxusu belə, döndərə bilməzdi. Sevərək seçdiyi yolda inamla, qətiyyətlə addımlayan Zamin illər idi ki, ad gününü qeyd etmirdi. Evlərinə məzuniyyətə gələndə belə, 10 gündən artıq qalmazdı. Bütün fikri, xəyalı qısa zamanda geriyə – xidmətinə dönmək idi. Sonuncu dəfə 2010-cu ilin oktyabr ayında məzuniyyətə çıxır. Anasının xahişi ilə sinif və kursant yoldaşlarını ad gününə dəvət edir. Bu, onun həyatında təmtəraqlı qeyd olunan ilk və sonuncu ad günü olur.

2011-ci il yanvarın 25-də Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdam rayonunun Cəvahirli kəndi istiqamətində açdığı atəş nəticəsində Zamin Məmmədov şəhidlik məqamına qovuşur.

Yeni il ərəfəsində Azərbaycan televiziyasının əməkdaşları Zamin Məmmədovdan müsahibə alanda və ona "Arzuların varmı?", – sualını ünvanladıqda cavabı belə olmuşdu: "Yeni ili işğaldan azad olunacaq torpaqlarda qeyd etmək. Səngərdə zabit kimi xidmət etmək mənim ən böyük arzum idi. Torpaqlarımızın işğalı ilə barışa bilmərik. Tam silahlanmış, döyüş gücünə malik bir ordu olaraq Ali Baş Komandanın əmrini gözləyirik. Bu əmri layiqincə yerinə yetirəcəyimizə əminəm. Biz uduzmamışıq. Əsgər anaları rahat olsunlar, qürur hissi keçirsinlər ki, övladları səngərdə düşmənlə üz-üzə torpağımızı, millətimizi, xalqımızı qoruyur", – demişdi Zamin Məmmədov.

### *O bayrağı öz əlimlə torpağa sancacağam*

"Divara asılmış bayrağı görürsən, qızım? O bayrağa bükülüb gəlib şəhidim. Məzarı üstünə sancmaq istədilər, qoymadım. Tanrıdan heç nə istəmirəm, ömür payı istəyirəm. Tanrı mənə ömür versin, torpaqlarımızın azad olunmasını görüm. O bayrağı öz əllərimlə Zaminin uğrunda şəhid olduğu Ağdam torpaqlarına sancacağam. Qocalıb əldən düşsəm də, sürünə-sürünə də olsa, o torpaqlara gedəcəyəm", – deyir qəhrəman yetişdirən qəhrəman ana.

Ana deyir ki, Lələtəpə yüksəkliyinin alınması xəbərini eşidəndə işdən çıxıb qaça-qaça evə gəldim. Bu şad xəbəri Zaminə "yetirmək üçün". Saatlarla dayandım şəklinin qarşısında. Anabala "söhbət etdik". Sanki mənə dünyaları vermişdilər. Oğlumun ruhu az da olsa, dinclik tapırdı axı. Həmin gün cəmi şəhidlərin ruhu şad idi. Bundan iki il sonra Günnüt zəfəri mənə qol-qanad verdi. Oğlumun itkisindən sonra hər iki zəfər müjdəsi mənim üçün əvəzedilməz pay idi. Elə gün olmaz ki, xəbərləri izləməyəm. Dövlətimizə, ordumuzun günü-gündən artan qüdrətinə, həyatını Azərbaycan Respublikasının müdafiəsinə həsr etmiş oğullara güvənirəm.

### *Yüz-yüz itən olsun, min-min də bitən var*

"Nəvəm Ramal Abbasov bu il Heydər Əliyev adına Hərbi Liseyə qəbul olundu. Çox sevindim. Özüm də liseyə getdim. Liseydə şəhid məzunların xatirəsinə həsr olunmuş lövhədə Zaminin də şəkli var. Əlindən tutub ora apardım. Bax dayınla öyün dedim. Onun getdiyi yolun davamçısı ol. O yolu yarımçıq buraxmaq olmaz. O yol Vətən yoludur, namus yoludur. Bu yola girdinsə, geri dönüşü yox, geridə buraxdıqlarını düşün. Bil ki, Vətən anadır. İrəli bax və cəsarətlə yürü. Biz haqq yolundayıq. Kimsənin torpağında gözümüz yox. Öz haqqımız uğrunda, Vətənimiz yolunda, lazım gəlsə, hamımız əlbir olub savaşa gedəcəyik. Bu, Vətənə məhəbbət, dövlətçiliyə sədaqət yolu, inam yoludur! Bu yolda yüz-yüz itən olacaq, Zaminlər itəcək, Ramallar bitəcək".

Bir müqəddəs amalın iki qəhrəmanı – ana və oğul! Vətən aşiqi yetişdirmiş ana da qəhrəmandır. "Oktyabrın 5-i onun doğum günüdür. Yad etsəniz, sevinərəm", – demişdi Nərgiz ana. Biz heç onu unutmadıq ki! Şəhidlər ölmür, şəhidlər unudulmur. Şəhidlər elə bir mərtəbədədirlər ki, yoxluqları ilə belə, illərə meydan oxuyurlar. Onlar uğrunda şəhid olduqları bu torpağa, bu elə, bu obaya adlarını öz qanları ilə yazıblar. Bu torpaq şəhid qanları ilə müqəddəsləşib.

*Şəhid varsa, torpaq da var, Vətən də.*
*Şəhidlərə ölüm yoxdur Vətəndə!*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan televiziyasının baş redaktoru***

# Kiber-hücumların qurbanına çevrilməyək

Son günlər "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin marka adından sui-istifadə edilməklə kiber-kampaniya başladılıb. Təəssüf ki, bir neçə vətəndaş artıq bu cür kiber-hücumlara məruz qalıb. Naməlum kiberdələduzlar tərəfindən yaradılan və loqotipində "Azərpoçt" MMC-nin loqosu yerləşdirilən səhifələrin məzmununda bildirilir ki, "Azərpoçt" MMC tərəfindən promo-aksiya keçirilir və qiymətli əşya udulur. Həmin uduş şəxsi məlumatlar təsdiq edilməklə və cüzi məbləğ ödənilməklə qısa müddət ərzində çatdırılır. Bu cür məlumatlara etimad edərək linkə keçid edən və kart məlumatlarını daxil edən vətəndaşların hesabından böyük məbləğdə vəsaitlər silinir.

Belə hallarla rastlaşan istifadəçilərin nəzərinə çatdırılır ki, internetdən istifadə zamanı veb-brauzeriniz sizi başqa bir sayta yönləndirirsə, bu, o deməkdir ki, sizin mobil qurğu və ya kompüter zərərli proqramla yoluxub. Bu halda telefonunuza həmin saytdan arzuolunmaz "pop-up" reklamlar gəlir, eyni zamanda zərərli proqramlar yüklənir. Məqsəd böyük məbləğli pullar və ya uduşlar vəd edərək istifadəçiləri aldatmaqdır.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi bu kimi hallarda internet istifadəçilərini ayıq davranmağa çağırır və həqiqətə uyğun olmayan belə cəlbedici vədlərə etimad edərək şəxsi, eləcə də kart məlumatlarını təqdim etməməyi, yalnız müvafiq quruma məxsus internet informasiya ehtiyatlarından, mobil tətbiqlərdən istifadə etməyi tövsiyə edir.

İdarəetmə panelindən istifadə edərək xəbəriniz olmadan son yüklənilən zərərli proqramları kompüterinizdən təmizləyin. İstifadə etdiyiniz brauzerin tənzimləmələr bölməsindən həmin resursdan olan uzantıları silin. Əgər brauzerinizdəki uzantılardan hansının zərərli olduğunu bilmirsinizsə, bu halda bütün uzantıları silməyiniz tövsiyə olunur. Mobil telefonunuzu və ya kompüterinizi lisenziyalı antivirus proqramı ilə yoxlayın və viruslardan təmizləyin.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi***

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 702706 | 72789 | 72847 | 100,1 |
| 2. | Naxçıvan şəhəri | 1347847 | 134785 | 134817 | 100,0 |
| 3. | Kəngərli rayonu | 253775 | 25378 | 25381 | 100,0 |
| 4. | Babək rayonu | 906909 | 91755 | 91771 | 100,0 |
| 5. | Ordubad rayonu | 424495 | 42450 | 42454 | 100,0 |
| 6. | Culfa rayonu | 365255 | 36526 | 36528 | 100,0 |
| 7. | Şahbuz rayonu | 217175 | 22084 | 22086 | 100,0 |
| 8. | Sədərək rayonu | 85868 | 8639 | 8640 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 7051826 | 1039957 | 998361 | 96,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **11355856** | **1474363** | **1432885** | **97,2** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2441 | 180,6 | 180,6 | 100,0 |
| 2. | Şərur rayonu | 2095 | 147,5 | 147,5 | 100,0 |
| 3. | Babək rayonu | 1520 | 109,1 | 109,1 | 100,0 |
| 4. | Ordubad rayonu | 1102 | 77,9 | 77,9 | 100,0 |
| 5. | Culfa rayonu | 910 | 67,8 | 67,8 | 100,0 |
| 6. | Kəngərli rayonu | 557 | 41,6 | 41,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 353 | 25,0 | 25,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 265 | 19,0 | 19,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18640 | 1677,6 | 1677,0 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27883** | **2346,1** | **2345,5** | **100,0** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 27 milyon 883 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 346 min 100 manat olmuş, cəmi 2 milyon 345 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerji dəyərinin 100,0 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 678